BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# AMNİSTİYA VƏ ƏFVETMƏ HAQQINDA QANUNVERİCİLİYİN İNKİŞAFINA DAİR

**S.N.RZAYEVA**

***Bakı Dövlət Universiteti***

Hər hansı problemin mahiyyətini dərindən dərk etmək, onun geniş və hərtərəfli təhlilini vermək, inkişaf meyllərini müəyyənləşdirmək və həlli yollarını proqnozlaşdırmaq üçün bir çox başqa məsələlərlə yanaşı onun inkişaf tarixini də araşdırmaq lazımdır. Bu müddəa tam şəkildə cinayət hüququnun amnistiya və əfvetmə institutları ilə bağlı probleminə də aiddir. Məhz buna görə Azərbaycan Respublikasının müasir qanunvericiliyində amnistiya və əfvetmənin yeri, rolu və əhəmiyyətini, onun təkmilləşdirilməsi yollarını müəyyən etmək üçün bu institutların tarixi inkişaf yoluna nəzər salmaq zəruridir.

Amnistiya və əfvetmə ilə bağlı Azərbaycanda qanunvericiliyin inkişafını izləmək üçün tarixə nəzər salmağa ehtiyac vardır. Belə ki, VII əsrdə Azərbaycanın ərəblər tərəfindən istilasından başlayaraq ölkədə hüquqi məsələlər, o cümlədən cinayət-hüquqi münasibətlər dini qanunvericiliklə, şəriət qanunları əsasında həll edilirdi. İslam dinində, müqəddəs Qurani-Kərimdə bağışlama, əfv etmə və mərhəmətlilik məsələlərinə xüsusi diqqət yetirilir. Dünyada elə bir tarixi, mədəni və dini abidə yoxdur ki, «mərhəmət», «bağışlamaq», «əfv etmək» kəlmələri Qurani-Kərimdə olduğu qədər işlənsin, insanları mərhəmətli olmağa dəvət etsin, səhv edib cinayət törədən, düz yoldan azan sonra isə səhvlərini başa düşüb, peşman olan və düzgün yola qayıdanları əfv etməyə, bağışlamağa çağırsın. Bu barədə Qurani-Kərimdə çoxlu sayda ayələr vardır. Məsələn, Qurani-Kərimin beşinci «əl-Maidə» surəsinin 39-cu ayəsində deyilir: «...hər kəs gördüyü haqsız işdən (oğurluqdan) sonra tövbə edib özünü düzəltsə, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah bağışlayan və rəhm edəndir» (1, s. 93). Yeddinci «əl-əraf» surəsinin 199-cu ayəsində göstərilir: «Sən bağışlama yolunu tut, yaxşı işlər görməyi əmr et və cahillərdən üz döndər!» (1, s. 147). Qeyd edək ki, Qurani-Kərimin 114 surəsindən 113 surəsinin «Rəhmli, mərhəmətli Allahın adı ilə!» başlamasının özü müqəddəs kitabımızda mərhəmət, bağışlamaq və əfv etmək məsələlərinə necə yüksək qiymət verildiyinin, islam dininin humanizminin əyani təzahürüdür.

Qeyd edək ki, Rusiya ilə İran arasında bağlanmış 12 oktyabr 1813-cü il tarixli Gülüstan və 10 fevral 1828-ci il tarixli Türkmənçay müqavilələri əsasında Azərbaycan iki yerə parçalanmış və onun şimal hissəsi – müasir Azərbaycan Respublikasının ərazisi Rusiya imperiyasına birləşdirilmiş, cənub hissəsi isə İranın tərkibinə keçmişdir. Həmin vaxtdan başlayaraq ölkədə dünyəvi imperiya qanunları, o cümlədən cinayət qanunvericiliyi tətbiq edilməyə başlamışdır.

Rusiyanın 1845-ci il Cinayət və İslah Cəzaları Qanunnaməsi əfvetməni nəzərdə tutur və ilk dəfə ona anlayış verirdi. Buna qədər isə

qanunvericilikdə əfvetmə hüququnun yalnız hökmdara məxsus olması göstərilirdi. Qanunnamənin 170, 171-ci maddələrinə görə əfvetmənin mənbəyi yalnız Ali Mütləq Hakimiyyət idi və əfvetmə yalnız Monarxın mərhəməti ilə tətbiq edilə bilərdi. Əfvetmə – ayrı-ayrı şəxslərə cəza tədbirinin tətbiq edilməməsində ifadə edilirdi.

Əfvetmə və amnistiya məhkəmənin mülahizəsindən asılı deyildi, bilavasitə Ali Mütləq Hakimiyyətə əsaslanır və Monarxın mərhəmətinin ifadəsi idi. Müstəsna hallarda məhkəmə monarx qarşısında vəsatət qaldırırdı. 25 noyabr 1865-ci il tarixli fərmana uyğun olaraq məhkəmənin əfv haqqında vəsatəti ədliyyə naziri vasitəsilə çara məruzə edilirdi. Əfv haqqında vəsatətlə hüquq pozucularının özləri də müraciət edə bilərdilər. Məhkumların əfv haqqında xahişləri «ən ciddi ehtiyatkarlıqla nəzərdən keçirilir və onların vəziyyətinin yüngülləşdirilməsi barədə vəsatət üçün üzrlü səbəblər olduqda qəbul edilirdi» (9, s. 46).

Əfvetmə aşağıdakı formalarda mümkün idi:

1) məhkəmənin hökmü ilə təyin olunmuş cəzanın ləğv edilməsi və ya daha yüngül cəza növü ilə əvəz edilməsi; 2) çəkilən cəzanın ləğv edilməsi və ya daha yüngül cəza növü ilə əvəz edilməsi; 3) başlanmış cinayət işinə xitam verilməsi; 4) cəzanın nəticələrinin aradan qaldırılması.

Əfvetmə aktı ilə cinayət təqibinə xitam verilməsi cinayətin törədilməsi ilə bağlı cinayətkar üçün meydana çıxmış bütün nəticələri aradan qaldırmırdı. Belə ki, cinayət törətmiş və əfv edilmiş şəxs dinlə (kilsə) ilə bağlı məhrumiyyətlərdən azad edilmirdi. Əfv edilmiş şəxsin kilsə ilə bağlı məhrumiyyətləri dini hakimiyyətin mülahizəsi ilə bağışlanırdı və ya davam edirdi. Hesab edilirdi ki, burada söhbət cəza haqqında deyil, vicdanın təmizlənməsi barədə gedir.

Əfvetmə cinayətin mülki nəticələrinə də şamil edilmirdi. Belə ki, əfvetmə vurulan zərərin əvəzinin verilməsini, xəzinə rüsumlarının, məhkəmə xərclərinin ödənilməsini aradan qaldırmırdı. Bu barədə əfvetmə manifestlərində də göstərilirdi.

Qanunnamə amnistiyaya əfvetmənin formalarından biri kimi baxır və amnistiyanı – böyük sayda təqsirli şəxslərin cəzasının bağışlanması və ya yüngülləşdirilməsi yaxud onlara cinayət təqibinin tətbiq edilməməsi və ya xitam verilməsi kimi müəyyən edirdi.

Beləliklə, Qanunnamədə əfvetmə ilə amnistiyanın fərqi aydın göstərilirdi. Belə ki, əfvetmə dedikdə ayrı-ayrı şəxslərin bağışlanması, amnistiya dedikdə çoxlu sayda şəxslərin bağışlanması başa düşülürdü.

Əfvetmə cəzanı aradan qaldırsa da, bağışlanmış əməl təqsirkarın sonradan törətdiyi cinayətin təkrar hesab edilməsinə təsir göstərə yaxud təqsirkarın peşəkar cinayətkar sayılması üçün əsas ola bilərdi.

Törədilən cinayət nəticəsində hüquqlardan məhrum edilmiş şəxslərin əfvetmə əsasında hüquqlarının bərpa edilməsi ali hakimiyyətin mülahizəsindən asılı idi. Hüquqların bərpa edilməsinin hüdudları əfvetmə haqqında qərarın özündə müəyyən edilirdi. Ancaq müəyyən təriqətlərə mənsub ruhanilər bütün və ya bəzi dini mənsəblərdən məhrum edildikdə və sonra əfv edildikdə, onların dini mənsəbləri bərpa edilmirdi.

Təqsirkarın artıq çəkdiyi cinayətin nəticəsi yalnız əfvetmə aktında göstərilən halda ləğv edilirdi. Ancaq bu qayda artıq üçüncü şəxslər üçün

hər hansı hüquqlar müəyyən edən nəticələrə aid edilmirdi. Buna görə əfvetmə pozulmuş nikahı bərpa edə bilməzdi, qanuni varisə keçmiş mülkü geri qaytara bilməzdi, istifadə edildiyi və ya satıldığı halda müsadirə edilmiş əmlakı və ya onun dəyərini qaytara bilməzdi və s.

Əfvetmənin həyata keçirilməsi cinayətkarın iradəsindən asılı deyildi. Belə ki, əfv edilmiş şəxs ona göstərilmiş mərhəmətdən imtina edərək cəzanın tətbiq edilməsini xahiş edə bilməzdi.

Çar Rusiyasının qanunvericiliyində «amnistiya» termininin adı demək olar ki, çəkilmirdi, çox vaxt «əfv» və ya «bağışlama» terminlərindən istifadə edilirdi. Əfvetmə aktları manifest şəklində verilirdi. Ən mühüm manifestlər 15 may 1883-cü ildə, 14 noyabr 1894-cü ildə (II Nikolayın nikah bağlaması münasibətilə), 14 may 1896-cı ildə (I Nikolayın tacqoyma mərasimi münasibətilə) verilmişdir.

Amnistiya və əfvetmə institutlarının yeni inkişaf mərhələsi 1903-cü il Cinayət Qanunnaməsinin qəbul edilməsi ilə bağlı olmuşdur. Cinayət Qanunnaməsi əfvetmə institutunu nəzərdə tutur və 1845-ci il Qanunnaməsində əfvetmənin formuləsini olduğu kimi təkrarlayırdı.

1903-cü il Cinayət Qanunnaməsinin 72-ci maddəsində göstərilirdi ki, ümumi qanunlardan götürülmüş bu mərhəmətin (əfvetmə şəklində) qüvvəsi və təsir sahəsi əmr və ya fərman yaxud manifestdə müəyyən edilir və təqsirkarın vəziyyətini yüngülləşdirir və ya o, tamamilə bağışlanır.

Monarxın müstəsna hüququ olan əfvetmə, bir qayda olaraq, manifest şəklində həyata keçirilirdi. Belə ki, 11 avqust 1904-cü ildə taxt-tacın varisinin anadan olması münasibətilə cinayətkarların bağışlanması haqqında manifest verildi. 1906-cı ildə nəşr edilmiş əsas qanunlarda monarxın əfvetmə hüququ müəyyən edilirdi.

1905-ci ildən başlayaraq əfvetmə aktları manifestlər şəklində deyil, fərmanlar şəklində verilməyə başlandı. 1905-ci ilin inqilabi hadisələrindən sonra 21 oktyabr 1905-ci ildə əfv haqqında fərman verildi. Həmin fərmanla mövcud siyasi quruluşdan narazı olan və onu devirməyə çağıran inqilabi hadisələrin iştirakçıları bağışlanıldı. Dövlətə xəyanətdə və hökmdara və imperator ailəsinin üzvləri əleyhinə yönəlmiş digər əməllərdə təqsirli bilinənlərin cəzası yüngülləşdirildi: ölüm cəzası katorqa ilə, ömürlük katorqa on beş il azadlıqdan məhrumetmə ilə əvəz olundu. Öz növbəsində azadlıqdan məhrumetmə müəyyən müddətə sürgünlə əvəz edildi. İnqilabi birliklərin sıravi iştirakçılarına şamil edilən 21 oktyabr 1905-ci il fərmanı siyasi cinayətlərə görə məhkum edilmiş mövcud quruluşun təhlükəli əleyhdarlarına faktik olaraq toxunmadı.

1917-ci ilin fevral inqilabına qədər əfv fərmanları əsasən cinayət-hüquqi xarakter daşıyırdı və siyasi cinayətlərə şamil edilmirdi. Qeyd edək ki, yalnız 1905-1907-ci illər ərzində siyasi cinayətlərə görə 26 min adam məhkum olunmuşdu.

21 oktyabr 1905-ci il fərmanından sonra əfvetmə haqqında digər fərmanlar verildi. Onların arasında Romanovlar sülaləsinin 300 illiyi münasibətilə 21 fevral 1913-cü ildə verilən fərman xüsusi yer tutur. Ancaq bu fərman Rusiyada idarəçilik formasını dəyişməyə və ya taxt-tacın vərəsəlik yolu ilə keçməsi əleyhinə yönəlmiş cinayət əməllərinə görə məhkum edilmiş inqilabi hərəkatın xadimlərinə şamil edilmirdi.

1917-ci il fevral inqilabından sonra Müvəqqəti Hökumət 7 mart

1917-ci ildə amnistiya haqqında fərman verdi. Fərmanda ümumi siyasi amnistiya elan olunurdu. Bunun ardınca amnistiya haqqında 14 və 17 mart 1917-ci il tarixli fərmanlar verildi. Bu fərmanlar ümumi cinayətlərə şamil edilirdi (8, s. 393-394).

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası yaradıldı. Demokratik hökumət 23 iyun 1918-ci il tarixli qərarı ilə çar Rusiyasının Müvəqqəti Hökumət tərəfindən ləğv edilməmiş bütün qanunlarının və digər normativ aktlarının Azərbaycanın bütün ərazisində qüvvədə qaldığını elan etdi. Həmin qərarda deyilirdi ki, «bütün idarəetmə sahələri və məhkəmə üzrə hazırda qüvvədə olan bütün qanunlar Azərbaycan Respublikasının hökuməti tərəfindən müəyyən edilmiş qanuni qaydada ləğv edilənə və ya dəyişdirilənə qədər qüvvəsini saxlayacaqdır» (2).

Azərbaycan Demokratik Respublikasının mövcud olduğu 23 ay müddətində parlament tərəfindən iki amnistiya aktı qəbul edildi. Birinci amnistiya aktı 8 yanvar 1919-cu ildə elan olundu. Amnistiya haqqında sənəddə deyilirdi: «Azərbaycanın parlamentinin açılışının bayram edilməsi münasibətilə siyasi amnistiya elan olunur». Bu amnistiya aktına əsasən Cinayət Qanunnaməsinin (1909-cu il nəşri) 129-136-cı maddələrində (qiyam qaldırmağa və ya xəyanətə, mövcud dövlət quruluşunu devirməyə, itaətsizliyə və s. sövq edən ideyaları yaymanın müxtəlif növləri), Cinayət və islah cəzaları Qanunnaməsinin (1885-ci il nəşri) 262-275-ci maddələrində (hökumətin sərəncamlarına müqavimət göstərməyin və hakimiyyətə itaətsizliyin müxtəlif növləri), 276, 280, 281, 286-cı maddələrində (hökumət məmurlarını təhqir və aşkar hörmətsizlik etmənin müxtəlif növləri), həmçinin digər maddələrində nəzərdə tutulmuş cinayətlərə görə, eləcə də Münsiflər Məhkəməsinin təyin etdiyi cəzalar haqqında Nizamnamənin (1885 və 1914-cü il nəşrləri) bəzi maddələrində nəzərdə tutulmuş cinayətlərə görə məhkum olunmuş şəxslər cinayət məsuliyyətindən və cəzadan azad edilirdi.

Bu amnistiya aktı 7 dekabr 1919-cu il tarixə qədər törədilmiş cinayətlərə görə məhkəmə hökmü çıxarılmamış və ya qanuni qüvvəyə minməmiş, yaxud icraya yönəldilmiş bütün şəxslərə şamil edilirdi. Həmçinin həmin akta əsasən üstü açılmayan və ya icraatda olan göstərilən cinayətlərə görə də icraata xitam verilirdi.

8 yanvar 1919-cu il amnistiya aktının bir mütərəqqi cəhəti də bu aktın yuxarıda göstərilən maddələrdə nəzərdə tutulmayan cinayətləri dini və siyasi mülahizələr üzündən törətmiş şəxslərin xahişi ilə onlara şamil edilməsidir (3, s. 106-107).

12 yanvar 1920-ci ildə Antantanın Ali Şurası Azərbaycan Demokratik Respublikası hökumətini de-fakto tanıdı. Bu münasibətlə Azərbaycan Demokratik Respublikasının parlamenti 9 fevral 1920-ci ildə «Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə tanınması münasibətilə əhaliyə verilən güzəştlər haqqında» adlı ikinci amnistiya aktı qəbul etdi. Bu amnistiya aktı üç hissəyə bölünür və ümumi, hərbi və vergi cinayətlərini nəzərdə tuturdu. Birinci hissəyə görə casusluqda ifadə olunan dövlətə xəyanət də daxil olmaqla dövlət əleyhinə cinayət törətmiş şəxslər cinayət təqibindən və cəzadan azad edilirdi. Bu müddəa milli düşmənçilik zəminində cinayət törətmiş şəxslərə, habelə vəzifə mövqeyinə görə mənimsəmə və israf etmədə təqsirləndirilən şəxslərə, əgər onlar mənimsədiyi və israf etdiyi əmlakı amnistiya aktının qəbul

edildiyi günə qədər tam qaytarmışlarsa, şamil edilirdi. Amnistiya aktının ikinci hissəsində hərbi cinayətlərə, üçüncü hissəsində vergi cinayətlərinə görə cinayət məsuliyyətindən və cəzadan azadetmə nəzərdə tutulurdu (3, s. 875-880).

1920-ci il aprelin 28-də bolşevik işğalı nəticəsində Azərbaycan Demokratik Respublikası süqut etdi və Azərbaycanda sovet hakimiyyəti quruldu. Bundan dərhal sonra o vaxta qədər mövcud olan bütün hüquq sistemi və məhkəmə orqanları ləğv edildi. 12 may 1920-ci il tarixli «Xalq məhkəməsi haqqında» dekretlə və «Burjua məhkəmə orqanlarının ləğv edilməsi və xalq məhkəmələrinin və istintaq komissiyalarının yaradılması haqqında» qərarla Azərbaycan SSR-in cinayət hüququnun əsası qoyuldu. Yeni sosialist hüquq sistemi, o cümlədən cinayət qanunvericiliyi yaradılmağa başlandı. Bu zaman hər şey totalitar rejimin müdafiəsinə, inqilab qanunlarına, çürüklüyünü tarixin sübut etdiyi sosializm ideyalarına, marksizm-leninizm adalandırılan ehkamçı nəzəriyyəyə tabe edildi. Təəssüf ki, bütün digər sahələrdə olduğu kimi cinayət hüququ sahəsində də həmin vaxta qədər əldə edilmiş mütərəqqi və elmi nə vardısa hamısı bir kənara atıldı.

Azərbaycan SSR-in ilk Cinayət Məcəlləsi qəbul edilənə qədər respublikada cinayət hüququnun normaları ən müxtəlif orqanlar tərəfindən verilən müvafiq dekretlər, qərarlar və s. vasitəsilə yaradılırdı. Eləcə də amnistiya aktları dekretlər vasitəsilə verilirdi. Hələ 12 may 1920-ci il tarixli «Xalq məhkəməsi haqqında» dekretin 23-cü maddəsində amnistiyanın adı çəkilməsə də «... təqsirləndirilənin istənilən cəzadan azad edilməsi» barədə danışılırdı (11). Sovet hakimiyyətinin ilk illərində həm amnistiya, həm də əfvetmə aktları geniş tətbiq edilirdi. Sovet hakimiyyəti qurulduqdan sonra ilk amnistiya aktı Azərbaycan İnqilab Komitəsi tərəfindən qəbul edilən və 14 iyul 1920-ci il tarixdə nəşr edilən dekret oldu. Bu dekretin 1-ci bəndinə görə onun nəşr olunması gününə qədər məhkəmələr (inqilabi tribunallar və xalq məhkəmələri) və ya inzibati orqanlar tərəfindən həbs edilənlər və həbs yerlərində saxlanılanlar vaxtından əvvəl azad edilirdi. Bu dekretin 1-ci bəndinin qeydinə görə amnistiya Sovet hakimiyyəti əleyhinə sui-qəsdlərdə iştirak və ya məqsədi Sovet hakimiyyəti əleyhinə silahlı mübarizə olan partiyalara və qruplara köməyə görə, tamah məqsədli cinayətlər törətməyə, casusluğa görə təqsirləndirilən və ya məhkum edilən şəxslərə, habelə əksinqilabi partiyaların və təşkilatların görkəmli nümayəndələrinə şamil edilmirdi. Dekretin 2-ci bəndinə görə göstərilən amnistiya aktı qeyddə göstərilən şəxslər istisna olmaqla, işi istintaqda olan, habelə istintaqa cəlb edilməyən bütün şəxslərə tətbiq olunurdu. Dekretin 5-ci bəndinə uyğun olaraq beş ildən yuxarı müddətə azadlıqdan məhkum olunmuş və həmin amnistiya ilə azad olunmamış məhkumların cəzası beş ilə endirilirdi (12).

Amnistiya haqqında növbəti akt Azərbaycan İnqilab Komitəsi tərəfindən Oktyabr Sosialist inqilabının 3-cü ildönümü münasibətilə qəbul edilən və 9 noyabr 1920-ci il tarixdə nəşr olunan dekret oldu. Bu dekretin 1-ci bəndinə görə Oktyabr inqilabının ildönümünə (noyabrın 7-ə) qədər həm ümumi, həm də siyasi xarakterli cinayətlər törətmiş bütün şəxslər, Sovet hakimiyyəti əleyhinə sui-qəsdlərdə və üsyanlarda iştirak və ya məqsədi Sovet hakimiyyəti əleyhinə silahlı mübarizə olan partiyalara və qruplara köməyə görə, tamah məqsədli vəzifə

cinayətlərinə görə təqsirləndirilən və ya məhkum edilən şəxslər istisna olmaqla, icraatın hansı mərhələsində və işin məhkəmə və ya inzibati orqanlar tərəfindən aparılmasından asılı olmayaraq bütün şəxslər cinayət təqibindən azad edilirdi. Dekretin 2-ci bəndinə görə yuxarıda göstərilən şəxslər istisna olmaqla, istintaqda və məhkəmədə olan bütün işlərə xitam verilir, məhkum edilən və cəza çəkən şəxslər, habelə milis, xalq komissarları və s. hakimiyyət orqanları tərəfindən həbs edilən şəxslər azad edilirdi. Dekretin 3-cü bəndinə görə tamah məqsədli olmayan ümumi cinayətlərə görə 5 ildən artıq olmayan müddətə məhkum olunmuşları, habelə təhrik edilmə üzündən həyat əleyhinə cinayət törətmiş bütün şəxslər, təyin edilən cəzadan asılı olmayaraq azad olunurdu. Tamah məqsədli cinayətlərə görə məhkum olunanların cəzası beş ilə endirilir, on ildən artıq cəzanın müddəti isə yarıbayarı azaldılırdı (14).

Sovet hakimiyyətinin ilk illərində ümumi amnistiyalarla yanaşı, bilavasitə fərariliyə görə amnistiyanı nəzərdə tutan dekretlər qəbul edilirdi. Belə ki, Azərbaycan İnqilab Komitəsinin Novruz bayramı münasibətilə verdiyi 27 mart 1921-ci ildə nəşr olunmuş dekretə uyğun olaraq 21 mart 1921-ci ilə qədər törədilmiş fərariliyə görə həbs edilən və həbs yerlərində saxlanılan bütün əsgərlər və hərbi qulluqçular dərhal azad edilir və öz hərbi hissələrinə qaytarılırdı (15). Azərbaycan İnqilab Komitəsinin «Azərbaycan Qırmızı Ordusundan fərarilik etmiş və 1 aprel 1921-ci ilə qədər könüllü qayıtmış şəxslərin amnistiyası barədə» 27 mart 1921-ci ildə nəşr olunmuş dekretində Azərbaycan Qırmızı Ordusundan fərarilik etmiş və 1 aprel 1921-ci ilə qədər öz hərbi hissəsinə və fərarilik üzrə uyezd komissiyalarına gəlmiş bütün şəxslərə amnistiya tətbiq edilirdi (16). Vətəndaşların Azərbaycan Qırmızı Ordusu sıralarına çağırışı ilə bağlı Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin verdiyi və 2 oktyabr 1921-ci ildə nəşr olunmuş dekretə görə Qırmızı Ordu sıralarından fərarilik etmiş, habelə işi məhkəmə və istintaqda olan və ya məhkum olunmuş fərarilik etmiş əsgərlərə ümumi amnistiya tətbiq edilirdi (13).

Bütün bunlar Sovet hakimiyyətinin fərarilik etmiş şəxslərə humanist münasibət bəsləməsinin, onlara öz təqsirlərinin əvəzini çıxmaq və Vətən qarşısında öz borcunu yerinə yetirmək üçün şərait yaratmasının təzahürü idi.

Amnistiya aktlarının verilməsi ilə yanaşı sinfi düşmən elan edilən varlı təbəqənin nümayəndələrinə olduqca sərt cəzalar – ölüm və azadlıqdan məhrum etmə geniş tətbiq edilirdi.

Sovet hakimiyyətinin ilk illərində əfvetmə də tətbiq edilirdi. Əfvetmə istənilən ictimai təhlükəli əməli törətmiş, ancaq əməlindən peşman olmuş və islaholma yolunu tutmuş şəxslərə tətbiq edilirdi.

30 dekabr 1922-ci ildə SSRİ yaradıldıqdan sonra 1924-cü ildə SSRİ Konstitusiyası, bunun ardınca SSR İttifaqı və müttəfiq respublikaların cinayət qanunvericiliyinin əsasları qəbul edildi. Bununla amnistiya və əfvetmə institutlarının inkişafının yeni mərhələsi başlandı. Amnistiya aktları həm ümumittifaq, həm də respublikaların dövlət orqanları tərəfindən verilməyə başlandı.

SSRİ Konstitusiyasının 1-ci maddəsinin «r» bəndinə görə bütün İttifaqın ərazisinə şamil edilən amnistiya vermək SSRİ-nin ali orqanlarının səlahiyyətində idi. SSRİ Konstitusiyasının müddəalarına

görə Ümumittifaq amnistiya təkcə cinayətkarların ayrı-ayrı kateqoriyalarına deyil, həm də məhkəmənin hökmü ilə məhkum edilməmiş şəxslərə şamil edilə bilərdi. Eyni zamanda SSRİ Konstitusiyasının 69-cu maddəsinə uyğun olaraq müttəfiq respublikaların məhkəmə və inzibati orqanları tərəfindən məhkum edilmiş vətəndaşlara münasibətdə amnistiya, eləcə də əfvetmə və reabilitasiya hüququ müttəfiq respublikaların Mərkəzi İcraiyyə Komitələrinə məxsus idi.

Müttəfiq respublikaların Ali Sovetləri və Ali Sovetlərinin Rəyasət Heyətləri yalnız məhkəmənin hökmü ilə məhkum edilmiş şəxsləri məsuliyyətdən azad edə bilərdi. Prosesin başqa mərhələsində amnistiya üzrə məsuliyyətdən azadetmə nəzərdə tutulmurdu.

SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin 18 noyabr 1925-ci il tarixli «SSR İttifaqı Ali Məhkəməsi və hərbi tribunallar tərəfindən məhkum edilənlərə müttəfiq respublikaların mərkəzi icraiyyə komitələri tərəfindən verilən amnistiyaların tətbiqi qaydası haqqında» Təlimatında müttəfiq respublikaların mərkəzi icraiyyə komitələrinə hərbi tribunalların hökmləri üzrə əfvetmə aktı qəbul etməmək qaydası müəyyən edilirdi.

SSR İttifaqı və müttəfiq respublikaların cinayət qanunvericiliyinin əsaslarının 35-ci maddəsinə uyğun olaraq hərbi tribunallar tərəfindən məhkum edilmiş şəxslərin əfvi müstəsna olaraq SSRİ Mərkəzi İcraiyyə Komitəsinə və onun Rəyasət Heyətinə məxsus idi.

Müttəfiq respublikaların mərkəzi icraiyyə komitələri müvafiq müttəfiq respublikanın ərazisində verdiyi amnistiya hərbi tribunalların hökmləri üzrə məhkum edilənlərə şamil edilə bilərdi, ancaq hər bir halda SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti ilə hökmən əvvəlcədən razılaşdırılmalı idi (10, s. 216).

Amnistiya və əfvetmə institutlarının sonrakı inkişafı Azərbaycan SSR-in 1927-ci il Cinayət Məcəlləsinin qəbul edilməsi ilə bağlıdır. 1927-ci il CM-in 58-ci maddəsinə görə məhkəmə bu və ya başqa mülahizə əsasında cinayət törətmiş şəxsi sosial müdafiə tədbirindən bütünlüklə azad etməyi və ya qanunla müvafiq maddədə müəyyən edilməmiş daha yüngül sosial müdafiə tədbirinə keçməyi məqsədəuyğun sayırsa məhkəməyə belə vəsatətlə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinə çıxmaq hüququ verir. Nəticədə belə şəxslərə əfvetmə tətbiq edilirdi.

Ölkədə əfvetmə həm Ümumittifaq, həm də respublika dövlət orqanları tərəfindən daim həyata keçirilirdi. Əfvetmədən fərqli olaraq amnistiya haqqında respublika aktlarının verilməsi 1930-cu illərin ortalarından dayandırıldı, yalnız Ümumittifaq amnistiya aktları verilirdi.

1927-ci il Cinayət Məcəlləsi qəbul ediləndən sonrakı ilk illərdə cəza tədbirlərinin azalması meyli üstünlük təşkil edirdi. Bunu SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 15 oktyabr 1927-ci il tarixli qərarı ilə qəbul edilmiş SSRİ-nin bütün fəhlələrinə, zəhmətkeşlərinə, kəndlilərinə, qırmızı əsgərlərinə Manifesti, bütün ölkələrin proletarlarına və əzilən xalqlarına müraciəti əyani göstərirdi.

Manifestə uyğun olaraq ölüm cəzası xeyli məhdudlaşdırıldı. Ancaq 1920-ci illərin axırı – 1930-cu illərin əvvəllərində cəza tədbirlərinin genişləndirilməsi meyli yenidən müşahidə edilməyə başlandı.

1930-cu illərdə dövlətin cəza siyasətində cəza tədbirlərinin sərtləşdirilməsi xəttinin davam etdirilməsi amnistiya aкtlarına da öz təsirini göstərdi. Belə кi, 1930-cu illərdə amnistiya aкtları çox az hallarda tətbiq edilir və deməк olar кi, cinayət məsuliyyətindən azadetməni nəzərdə tutmurdu. Həmin illərdə əfvetmə də az-az tətbiq edilirdi. Ancaq amnistiya və əfvetmə hüquq institutlarının özlərinin təкmilləşdirilməsi davam etdirilirdi. Bu işdə ali məhкəmə instansiyaları əhəmiyyətli rol oynayırdı.

Amnistiya aкtları getdiкcə daha dəqiq forma alırdı. Cəzadan tam və qismən azadetmə, eləcə də onun yüngülləşdirilməsi məhкəmənin təyin etdiyi cəzanın növündən və müddətindən asılı edilirdi. Amnistiya aкtı üzrə cəzadan azadetmə qismində çox vaxt «cinayətin ilк dəfə törədilməsi» halı göstərilirdi.

1936-cı il SSRİ Konstitusiyası amnistiya haqqında Ümumittifaq aкtlarının qəbul edilməsini ali dövlət və idarəetmə orqanlarının şəxsində SSR İttifaqının səlahiyyətinə verdi. SSRİ Konstitusiyasının 49-cu maddəsinin «к» bəndinə uyğun olaraq SSRİ Ali Sovetinin Rəyasət Heyətinə əfvetmə hüququ verildi.

Böyüк Vətən müharibəsinin başlanması ilə dövlətin cəza siyasəti hərbi dövrün tələblərinə uyğun olaraq dəyişiкliyə uğradı. Sovet Ordusunu кompleкtləşdirməк üçün az əhəmiyyətli cinayətlərə görə məhкum edilənlər azadlıqdan məhrumetmə yerlərindən azad edildilər. Əкsinqilabi cinayətlərə və digər xüsusilə təhlüкəli cinayətlərə görə məhкum edilənlər cəzalarını xüsusi mühafizə olunan zonalarda çəкirdilər.

SSRİ Ali Soveti Rəyasət Heyəti 1941-1945-ci illərdə amnistiya barədə dörd fərman vermişdi: 12 avqust 1941-ci il tarixli «SSRİ ərazisində həbsdə saxlanılan Polşa vətəndaşlarına amnistiya verilməsi haqqında», 10 avqust 1944-cü il tarixli «SSRİ ərazisində törətdiкləri cinayətlərə görə məhкum edilmiş Polşa vətəndaşlarına amnistiya verilməsi haqqında», 30 deкabr 1944-cü il tarixli «Hərbi sənaye müəssisəsindən özbaşına getmiş və bu müəssisəyə кönüllü qayıtmış şəxslərə amnistiya verilməsi haqqında», 7 iyul 1945-ci il tarixli «Faşist Almaniyası üzərində qələbə münasibətilə amnistiya haqqında». 7 iyul 1945-ci il tarixli amnistiya aкtı nəticəsində 391450 nəfər azadlığa buraxıldı.

Böyüк Vətən müharibəsi dövlətin hüquq siyasətini xeyli dəyişdirdi. Repressiya tədbirlərinin gücləndirilməsi və Stalinin şəxsiyyətinə pərəstiş amnistiyanın siyasi yönümünü aşağı saldı. 1947-ci ildən 1952-ci ilə qədər amnistiya haqqında nə İttifaq, nə də respubliкa aкtları verilmədi. Bu dövrdə əfvetmə böyüк əhəmiyyət кəsb edirdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 26 may 1947-ci il tarixli «Ölüm cəzasının ləğvi haqqında» fərmanı 1950-ci ildə ləğv edildi (4). SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 yanvar 1950-ci il və 30 aprel 1950-ci il fərmanları ilə Vətən xainlərinə, casuslara, təxribatçı-pozuculara və məhкumların qanunla müəyyən edilmiş digər кateqoriyalarına münasibətdə ölüm cəzasının tətbiqinə yol verilirdi (5). Bəzən кonкret cinayət işləri üzrə ölüm cəzası əfv edilirdi.

Bu dövrdə SSRİ Ali Soveti Rəyasət Heyəti bəzi cinayətlərə görə cinayət məsuliyyətini gücləndirən bir sıra fərmanlar verdi: 4 iyun 1947-ci il tarixli «Dövlət əmlaкını və ictimai əmlaкı oğurlamaq üstündə

cinayət məsuliyyəti haqqında» və «Vətəndaşların şəxsi mülkiyyətinin daha ciddi qorunması haqqında»; 9 iyun 1947-ci il tarixli «Dövlət sirrini açmağa və dövlət sirri olan sənədləri itirməyə görə məsuliyyət barədə»; 4 yanvar 1948-ci il tarixli «Zorlamaya görə cinayət məsuliyyətinin gücləndirilməsi barədə»; 7 aprel 1948-ci il tarixli «Araq hazırlamağa və satmağa görə cinayət məsuliyyəti barədə» və s.

Baxılan dövrün cinayət qanunvericiliyində xeyirxahlıq, mərhəmət və humanizm kimi ümumbəşəri xüsusiyyətlər nəzərə alınmırdı. İnqilabdan əvvəl cinayətkarlara ictimai qaydaların qurbanı kimi baxılırdısa, 1930-1950-ci illərdə cinayətkar cəmiyyətin düşməni hesab edilir və onlara törədilən əməlin təhlükəliliyinə və təqsirkarın şəxsiyyətinə uyğun olmayan sərt cəzalar tətbiq edilirdi.

Dövlətin cinayət-hüquq siyasətində kəskin dönüş 1953-cü ildə baş verdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 mart 1953-cü il tarixli fərmanı sovet dövlətinin mövcud olduğu bütün tarix ərzində verilmiş ən geniş amnistiya aktı idi. Fərmanda göstərilirdi ki, bu amnistiya sovet dövlət quruluşunun sadələşdirilməsinin, vətəndaşların şüurluluğunun yüksəlməsinin, qanunçuluğun və hüquq qaydasının gücləndirilməsinin və ölkədə cinayətkarlığın xeyli azalmasının nəticəsidir (6).

27 mart 1953-cü il tarixli amnistiya nəticəsində bir çox kateqoriya üzrə məhkumlar azad edildilər. Yüksək ictimai təhlükəliliyə malik şəxslərdən də azadlığa çıxan oldu, nəticədə onların çoxu yeni, o cümlədən ağır cinayətlər törətdilər.

Şübhəsiz, yüksək ictimai təhlükəliliyə malik şəxslərə bu qədər geniş amnistiyanın tətbiq edilməsinə zərurət yox idi. Bu, ölkədə residivin artmasına və cinayətkarlığın səviyyəsinin yüksəlməsinə şərait yaratdı. Digər tərəfdən 27 mart 1953-cü il tarixli amnistiya müəyyən əməllərin dekriminallaşdırılması və cəzalanan olmaması xəttini müəyyən edərək, sovet cinayət hüququnun humanist başlanğıclarının inkişafında müsbət rol oynadı. Fərmanın 8-ci bəndində bəzi vəzifə, təsərrüfat, məişət və digər az təhlükəli cinayətlərə görə inzibati və intizam qaydasında tədbirlər görülməsinin, ayrı-ayrı cinayətlərə görə cinayət məsuliyyətinin yüngülləşdirilməsinin zəruriliyi etiraf edilirdi. Bu prinsipial göstərişlərə uyğun olaraq sonralar bəzi əməllərə görə cinayət məsuliyyətini ləğv edən və ya yüngülləşdirən bir sıra cinayət-hüquqi aktlar qəbul edildi. Belə ki, abort etməyə, yük qatarlarında özbaşına getməyə, kənarda avadanlıq və material satmağa, dəyişməyə və buraxmağa, müəssisədən özbaşına və idarədən üzrlü səbəb olmadan getməyə görə cinayət məsuliyyəti ləğv edildi, dövlət və ictimai əmlakı xırda talamağa görə cinayət məsuliyyəti aşağı salındı. SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 aprel 1954-cü il fərmanı ilə vaxtından əvvəl şərti azadetmə və 14 iyul 1954-cü il tarixli fərmanla vaxtından əvvəl azadetmə institutları bərpa edildi. Amnistiya aktları yenidən geniş tətbiq edilməyə başlandı. Ancaq bu Sovet hakimiyyətinin ilk illərindəki qədər böyük miqyaslı deyildi.

1953-cü ildən sonra dövlətin cəza siyasəti yüngülləşdirildi. Hüquq pozuntularının qarşısını almağa, onları törətmiş şəxslərin islah olunmasına daha çox diqqət yetirilirdi. Əgər buna qədər azadlıqdan məhrumetmə yerlərinin əsas məqsədi məhkumları təcrid etmək sayılırdısa, indi təqsirkarların yeni cinayətlər törətməsini istisna edən şəraitin yaradılması, onların islah olunması və yenidən tərbiyə olunması

cəzanın icrası sisteminin vəzifəsinə çevrilirdi.

Cinayət-hüquq siyasətində humanizmin başlanğıclarının yaranmasının göstəricisi amnistiya aktlarının verilməsi idi. Təkcə 1955-ci ildə ölkədə iki amnistiya aktı, 1956-cı ildə üç amnistiya aktı verildi.

SSRİ Ali Soveti Rəyasət Heyəti 27 mart 1953-cü il tarixdə «1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə işğalçılarla əməkdaşlıq etmiş sovet vətəndaşlarının amnistiyası barədə» fərman verdi. Fərmanda deyilirdi ki, SSRİ Ali Sovetinin Rəyasət Heyəti humanizm prinsipini rəhbər tutaraq, Böyük Vətən müharibəsi dövründə qorxaqlıq və ya düşüncəsizlik göstərərək işğalçılarla əməkdaşlığa cəlb edilmiş sovet vətəndaşlarına münasibətdə amnistiya tətbiq etməyi mümkün sayır (7).

Humanizm xüsusiyyətləri SSRİ Ali Soveti Rəyasət Heyətinin sonrakı 28 sentyabr 1955-ci il tarixli «Müharibə dövründə Sovet İttifaqı xalqları əleyhinə törətdikləri cinayətlərə görə SSRİ məhkəmə orqanları tərəfindən məhkum edilmiş alman vətəndaşlarının vaxtından əvvəl azad edilməsi haqqında» və 13 dekabr 1956-cı il tarixli «Sovet İttifaqında məhkum edilmiş yapon vətəndaşlarının amnistiyası barədə» fərmanlarında da mövcud idi. Bu fərmanlarla Böyük Vətən müharibəsi dövründə Sovet İttifaqı xalqları əleyhinə törətdikləri cinayətlərə görə SSRİ məhkəmə orqanları tərəfindən məhkum edilmiş alman və yapon vətəndaşları vaxtından əvvəl azad edildi.

Amnistiya və əfvetmə institutlarının inkişafının yeni mərhələsi 1958-ci ildə 25 dekabr 1958-ci ildə SSR İttifaqı və müttəfiq respublikaların cinayət qanunvericiliyinin Əsaslarının və 1960-cı ildə Azərbaycan SSR-in Cinayət Məcəlləsinin qəbul edilməsi ilə bağlıdır. SSR İttifaqı və müttəfiq respublikaların cinayət qanunvericiliyinin Əsaslarında və Azərbaycan SSR-in Cinayət Məcəlləsində amnistiya və əfvetmə qaydasında cəzadan və cinayət məsuliyyətindən azadetmə nəzərdə tutulurdu.

3 dekabr 1961-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin «SSRİ Ali Soveti Rəyasət Heyətində əfvetmə haqqında vəsatətlərə baxılması qaydası barədə» qərarı çıxdı. Beləliklə, əfvetmənin həyata keçirilməsi mexanizmi qanunvericilikdə təsbit olundu.

1977-ci il SSRİ Konstitusiyası və 1978-ci il Azərbaycan SSR Konstitusiyası prosesin istənilən mərhələsində əfvetmə ilə bağlı məsuliyyətdən və cəzadan azadetməni nəzərdə tuturdu. Həmin vaxt qüvvədə olan Azərbaycan SSR Cinayət-Prosessual Məcəlləsi də təqsirləndirilən şəxsin məhkum edilənə qədər əfv edilməsinin mümkünlüyünü nəzərdə tuturdu.

1 sentyabr 1980-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin «Əfvetmənin həyata keçirilməsi və SSRİ Ali Soveti Rəyasət Heyətində əfvetmə haqqında vəsatətlərə baxılması qaydası barədə» qərarı çıxdı. Bu, SSRİ Ali Soveti Rəyasət Heyətinin 3 dekabr 1961-ci ildə qərarının yeni redaksiyası idi.

Həmin qərarlarda göstərilirdi ki, əfvetmə haqqında vəsatətə baxılarkən cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, məhkumun şəxsiyyəti, çəkilmiş cəzanın müddəti, cəzaçəkmə müəssisəsinin rəyi və digər hallar nəzərə alınırdı.

Sovet hakimiyyətinin ilk illəri ilə müqayisədə 1960-80-ci illərdə amnistiyalar xeyli dərəcədə gec-gec, müxtəlif mühüm dövlət hadisələrinin bayram edilməsi münasibətilə verilirdi. Bu amnistiyalarda

residiv cinayətкarlıqla və ağır cinayətкarlıqla mübarizədə ümumi ardıcıl meyli öz əкsini tapmışdı. Bir qayda olaraq, amnistiyaya ilк dəfə böyüк ictimai təhlüкə törətməyən şəxslər düşürdü.

1977-ci il SSRİ Konstitusiyasına görə amnistiya və əfvetmə SSR İttifaqının Ali Soveti və onun Rəyasət Heyətinin, müttəfiq respubliкaların Ali Sovetlərinin və onların Rəyasət Heyətlərinin müstəsna hüququ idi. Bir qayda olaraq, amnistiya aкtları SSR İttifaqı və ya müttəfiq respubliкaların Ali Sovetlərinin Rəyasət Heyətlərinin fərmanları və ya bəzən qanunları şəкlində verilirdi. Əfvetmə aкtları dövlət haкimiyyətinin ali orqanları tərəfindən fərman və qərarlar şəкlində verilirdi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 17 noyabr 1964-cü il tarixli «SSRİ Ali Soveti Rəyasət Heyətinin əfvetmə məsələləri üzrə aкtlarının forması haqqında» qərarı çıxdıqdan sonra əfvetmə aкtları fərman formasında, əfvetmə haqqında vəsatətin ləğv edilməsi isə qərar formasında verilməyə başladı.

1960-cı illərdən başlayaraq amnistiya barədə aкtlar gec-gec verilməyə başladı. Bu aкtlar fərdi qaydada müəyyən edilməmiş şəxslərin geniş dairəsinə, cinayətin xaraкterindən, məhкəmənin təyin etdiyi cəzanın ağırlığından, həmin şəxslərin cinsindən, yaşından və amnistiyada göstərilmiş digər hallardan asılı olaraq şamil edilirdi.

Amnistiya aкtlarından fərqli olaraq əfvetmə aкtları fərdi qaydada müəyyən edilmiş şəxslərə (bir və ya bir neçə nəfər) şamil edilirdi.

Amnistiyanın verilməsi təşəbbüsü yalnız ali haкimiyyət orqanına məxsus idi. Amnistiya aкtı tətbiq edilən şəxslərin cinayət işləri, hansı mərhələdə olmasından asılı olmayaraq, onlar cinayət məsuliyyətindən azad edilirdilər. Əgər belə şəxslərin əməlləri üzrə amnistiya haqqında fərman elan edilənə qədər cinayət işi qaldırılmamışdırsa, cinayət işi daha qaldırılmır, bütün istintaq işləri, habelə məhкəmədə hələ baxılmayan işlər xitam edilirdi. Amnistiya aкtı verilən vaxt cinayət işi məhкəmə istintaqında olmuşsa, məhкəmə istintaqı başa çatdırılır, təqsirкar cəzadan azad edilməкlə iş üzrə ittiham höкmü çıxarılırdı.

Şəxs ittiham edildiyi cinayətdə özünü təqsirli bilmirdisə, amnistiya aкtına əsasən məsuliyyətdən azad edilməsinə etiraz edirdisə və işin məhкəməyə göndərilməsini təкid edirdisə, cinayət işinin icraatına xitam verməк olmazdı. Bu halda təhqiqat orqanları işi baxılmaq üçün məhкəməyə göndərirdi.

Əfvetmə təкcə ali haкimiyyət orqanının təşəbbüsü ilə deyil, həm də məhкumun, onun müdafiəçisinin və ya qohumlarının, ictimai təşкilatların, müşahidə кomissiyalarının, cəzaçəкmə müəssisələrinin administrasiyasının və s.-in vəsatəti üzrə həyata кeçirilə bilərdi. Əfvetmə haqqında vəsatət verilən hər bir halda cəzaçəкmə müəssisəsi administrasiyası məhкumun davranışı, onun təhsilə və əməyə münasibəti barədə müfəssəl xasiyyətnamə verməli, əfvetmənin məqsədəuyğunluğu haqqında öz fiкrini, zəruri hallarda isə müşahidə кomissiyasının da fiкrini bildirməli idi.

Əfvetmə xaraкterindən və ağırlığından asılı olmayaraq istənilən cinayəti, o cümlədən ağır cinayət törətmiş şəxslərə tətbiq edilirdi. Ölüm cəzası azadlıqdan məhrumetmə ilə əvəz edildiкdə, bu cəzanın müddəti 15 ildən çox, 20 ildən az olmalı idi.

1980-ci illərin sonlarında SSRİ-nin hüquq sistemində dəyişiкliкlər

edilməsi, prezidentlik institutunun tətbiqi, amnistiya və əfvetməyə də toxundu. SSRİ Prezidentinə əfvetməni həyata keçirmək səlahiyyəti verildi, SSRİ Ali Sovetinin Rəyasət Heyəti isə amnistiya aktları vermək hüququna malik oldu. SSRİ Prezidentinin 14 noyabr 1989-cı il tarixli sərəncamı ilə əfvetmə haqqında vəsatətlərə ilkin baxış və müvafiq təkliflər hazırlamaq üçün SSRİ Prezidenti yanında Əfvetmə məsələləri üzrə Komissiya yaradıldı. Komissiyanın qərarı ilə onun işində xalq deputatları, dövlət orqanlarının, ictimai təşkilatların və əmək kollektivlərinin nümayəndələri iştirak edirdi.

1980-ci illərdən 1991-ci ilə qədər, yəni SSRİ-nin dağılmasına qədər amnistiya barədə bir sıra Ümumitifaq aktlar elan olundu. Belə ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin 6 noyabr 1986-cı il tarixli «Məhkum qadınların bəzi kateqoriyalarının azadlıqdan məhrumetmə yerlərindən azad edilməsi barədə», 18 iyun 1987-ci il tarixli Böyük Oktyabr Sosialist inqilabının 70 illiyi ilə bağlı amnistiya barədə» fərmanları; SSRİ Ali Sovetinin 28 noyabr 1989-cu il tarixli «Əfqanıstanda sovet qoşunları kontingentinin cinayət törətmiş keçmiş hərbi qulluqçularının amnistiyası barədə» qərarı, 1 noyabr 1991-ci il tarixli «Hərbi xidmətdən yayınan hərbi qulluqçuların amnistiyası barədə» SSRİ Qanunu verildi. Amnistiya ilə bağlı bu İttifaq aktları sovet dövlətinin tarixində sonuncu amnistiya aktları oldu.

SSRİ-nin dağılması, Azərbaycan Respublikasının müstəqillik qazanması, cəmiyyətin inkişafının sosial yönümünün dəyişməsi, sosializm ideyalarından imtina edilməsi, hüquqi dövlət quruculuğu yolunun seçilməsi ilə ölkədə cinayət-hüquq siyasətinin inkişafının keyfiyyətcə yeni mərhələsi başlandı. Bu, amnistiya və əfvetmə institutlarının da inkişafının yeni mərhələsini doğurdu.

12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasına görə əfvetməni həyata keçirmək hüququ Azərbaycan Respublikasının Prezidentinə, amnistiya vermək hüququ isə Azərbaycan Respublikasının Milli Məclisinə məxsusdur. 4 may 1995-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında Bağışlama Məsələləri Komissiyası yaradılmışdır. Qeyd edək ki, həmin vaxtdan indiyə kimi Azərbaycan Respublikası Prezidenti tərəfindən 42 əfv fərmanı verilmiş, ümumilikdə 4594 nəfər məhbus cəzadan azad edilmiş yaxud cəzası yüngülləşdirilmişdir. Onların arasında 25 nəfər ölüm cəzasına məhkum olunmuş şəxs, 80 nəfər qadın, 163 nəfər əlil, xəstə və qoca, 50 nəfər yeniyetmə, 67 nəfər ehtiyatsızlıq üzündən cinayət törətmiş şəxs olmuşdur. Bundan başqa, Azərbaycan Respublikasının Milli Məclisi amnistiya haqqında bir sıra qərarlar elan etmiş, onların əsasında çoxlu sayda məhbuslar cəzadan azad edilmiş yaxud onların cəzaları yüngülləşdirilir. Bütün bunlar respublikada həyata keçirilən əsl humanizmin təzahürü olub böyük siyasi, hüquqi və mənəvi əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim. Z.Bünyadov və V.Məmmədəliyevin tərcüməsi. Bakı, Azərnəşr, 1992.
2. Azərbaycan Respublikası MDTA, f.895, siy.1, iş 183, v.182.
3. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент. (Стенографические отчеты). Баку, Издательство «Азербайджан», 1998. С. 106-107.

4. Ведомости Верховного Совета СССР. 1947, № 17.
5. Ведомости Верховного Совета СССР. 1950. № 3.
6. Ведомости Верховного Совета СССР. 1953. № 4.
7. Ведомости Верховного Совета СССР. 1955. .№ 17.
8. Малиновский И. Лекции по истории русского права. 1906. С. 393-394.
9. Ромашкин П.С. Амнистия и помилование в СССР. М., 1959. С. 46.
10. Сборник действующих постановлений и директивных писем Верховного Суда СССР 1924-1944. М., 1946.
11. СУ Азерб. ССР. 1920, № 1. Ст 15.
12. СУ Азерб. ССР. 1920, № 3. Ст 209.
13. СУ Азерб. ССР. 1920, № 5. Ст. 334.
14. СУ Азерб. ССР. 1920, № 7. Ст 622.
15. СУ Азерб.ССР, 1921, № 3. Ст. 37.
16. СУ Азерб. ССР. 1921, № 3. Ст. 38.

## О РАЗВИТИИ ЗАКОНОДАТЕЛЬСТВА ОБ АМНИСТИИ И ПОМИЛОВАНИИ

**С.Н.РЗАЕВА**

**РЕЗЮМЕ**

В статье исследуется история развития, считающихся одним из важнейших институтов многих отраслей права, амнистии и помилования. Указывается, что эти институты зародились еще в древности, а в средние века особо применялась к представителям привилегированных слоев.

В последствии институты амнистии и помилования изучаются в свете Уложения о наказаниях уголовного и исправительных от 1845-го года, Уголовного Уложения от 1903-го года. Рассматриваются также и акты об амнистии, принятые в период существования Азербайджанской Демократической Республики.

Особо обращается внимание на исследование амнистий и помилований на основе Уголовных Кодексов Азербайджана от 1922, 1927 и 1960 гг.

В статье проводятся обобщения по исследуемому вопросу и делаются соответствующие выводы.

## ABOUT THE DEVELOPMENT OF AMNESTY AND PARDON LEGISLATION

**S.N.RZAYEVA**

**SUMMARY**

In this article the history of development about the amnesty and pardon legislation, which were considered the main institutes of many law spheres investigated. It is shown that these institutes have an ancient history and were put into practice onlu for privileged strata in the middle ctnturies. Afterwords the institutes of amnesty and pardon are learnt on the base of criminal and reformatory penalty Code of Russia in the yloir of 1845 and on the base of Criminal Code in the year of 1903 as weu. The amnesty acts accepted during the period of Azerbaijan Democratic Republic are also analysed. The legislation of amnesty and pardon during Soviet period – the great attention is paid to the investigations about the Criminal Code of the Republic of Azerbaijan in the year of 1922, 1927 and 1960.

The matters analysed in the article are socialized and certain conclusions are taken into consideration.